**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTISADİYYAT İNSTİTUTU**

***Əlyazma hüququnda***

**Şeybani Əsl Mənuçehr Abbasəli oğlu**

# İRİ TİKİNTİ ŞİRKƏTLƏRİNİN İNVESTİSİYA FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİNİN FORMALAŞMASI

**İxtisas: 5312.01 – «Sahə iqtisadiyyatı»**

**İqtisad üzrə fəlsəfə doktoru elmi**
**dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2018**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru, professor
**Vasif Müseyib oğlu Şirəliyev**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru, professor
**Beykes Seyfulla Xıdırov**

İqtisad elmləri namizədi,dosent
**Rafiq Əliskəndər oğlu İskəndərov**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

Dissertasiya işinin müdafiəsi 14 iyun 2018-ci il tarixində saat $14^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.81 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 14 may 2018-ci ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının
elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru **S.T.Şıxəliyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Tikinti sferasında investisiya fəaliyyətinin idarə edilməsi milli iqtisadiyyatın investisiya-tikinti bölməsini əmələ gətirən istehsal, funksional, təşkilat və institusional strukturlar sisteminin müəyyən edilməsinin reallaşdırılmasıdır.

Tikinti şirkətinin investşsiya fəaliyyətinin səmərəli inkişafını, investisiyasının ümumi həcmini, xüsusi vəsaitlərin səmərəli istifadə edilməsi üsullarını, kredit və fond bazarlarının əlavə pul vəsaitləri resurslarının cəlb edilməsi imkanlarını müəyyən etmək məsləhət görülür.

Beləliklə, İranda iqtisadiyyatın çoxlu digər sahələri fonunda tikinti sferasının sürətli sosial-iqtisadi inkişafı, tikinti sahsində rəqabət səviyyəsinin yüksəlməsi, təkcə iri tikinti şirkətlərinin istehsal gücünün artırılmasını yox, həm də onların texnoloji təkmilləşdirilməsi, tikinti şirkətlərinin bütün təsərrüfat fəaliyyətinin intensivləşdirilməsi, o cümlədən onların investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi hesabına əldə edilir. Yəni tikinti şirkətləri üçün investisiya fəaliyyətinin idarə edilməsinə sistemli yanaşmanın istifadə olunması çox aktualdır. İranın müasir iqtisadiyyatında iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin işlənilməsinin nəzəri və metodolooi xüsusiyyətlərinin öyrənilməsi tədqiqatın aktual mövzusudur və ciddi elmi yanaşmanı tələb edir.

**Problemin öyrənilməsi vəziyyəti.** İqtisadi elm tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsində istifadə edilən metodlara, mexanizmlərə böyük diqqət yetirir, bazarda investisiya fəallığının xüsusiyyətlərini öyrənir. Bu sahədə tədqiqat aparan Azərbaycan alimlərindən İ.Ə.Mehdiyevi, V.M. Şirəliyevi, M.A. Məmmədovu, T.Hüseynovu, S.B.Məmmədovanı, E.M.Yusifovu və başqa alimləri göstərmək olar. Bazar iqtisadiyyatı inkişaf edən xarici ölkələrin alimlərin B.Bernsin, P.Xavranyokun, V.Birmanın, L.Dc.Titmanın, M.D.Dcokun, A.Tomsonun, İ.Formbinin və s. əsərlərində bu problem ilə əlaqədar bir sıra məsələlər tədqiq edilmişdir.

Tikinti şirkətlərinin fəaliyyətinin tam hüquqi və müstəqil sahəsi kimi, investisiya fəaliyyətinin işlənilməsi, bir tərəfdən, tikinti şirkətlərini investisiya fəaliyyətinin inkişafının strateji məqsədini, digər tərəfdən isə, həmin məqsədə nail olmaq üzrə məsələlərin həll edilməsinin taktiki variantlarını müəyyən etməyə imkan yaradan, yeni elmi istiqamətidir.

Tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin konsepsiyasının işlənilməsi planlaşdırmanın keyfiyyətinin

yüksəldilməsinə, tikinti şirkətlərinin investisiya resurslarının istifadəsinə və bölüşdürülməsinə imkan yaradar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi İranın iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin metodlarının və modellərinin işlənilməsidir. İşdə qoyulan məqsədlərə nail olmaq üçün həmin mövzunu ardıcıl açıqlayan bəzi vəzifələrin baxılması və həyata keirilməsinə aiddir:

- iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi konsepsiyasının hazırlanması;
- iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi prinsiplərinin müəyyən edilməsi;
- investisiya layihələrinin icra müddətinin aşağı salınmasına yeni yanaşmaların müəyyən edilməsi;
- iri tikinti şirkətlərinin rəqabət qabiliyyətinin təhlili;
- iri tikinti şirkətlərinin investisiya cəlb edilməsini yaxşılaşdırmaq üçün investisiyya fəaliyyətinin qiymətləndirilməsi;
- iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin iqtisadi artım göstəricisinin təhlili metodikasının təyin edilməsi;
- iri tikinti şirkətinin investisiya fəaliyyətinin strategiyasının işlənilməsi;
- iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsində yenidən təşkil edilmənin formalaşması.

**Tədqiqatın obyekti** tikinti sferasında fəaliyyət göstərən iri tikinti şirkətləridir.

**Tədqiqatın predmeti** iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin prinsipləri və metodlarıdır.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** tikinti sferasının təşkilinin idarə edilməsinin inkişafı problemləri üzrə ölkənin və xarici alimlərin əsərlərində irəli sürülən nəzəri müddəalar, nəticələr və metodoloji prinsiplər təşkil edir.

Tədqiqat dialektik-materialist metodu, məntiq, struktur-funksional təhlil, investisiya menecmentinin anlayışları və prinsipləri, ekspert qiymətləndirilməsi metodları, investisiyalaşdırma nəticələrinin proqnozlaşdırılması çərçivəsində kompleks yanaşmanın tətbiqi ilə həyata keçirilibdir.

Dissertasiya tədqiqatının gedişində investisiya prioritetlərinin spesifikası nəzərə alınmaqla tikintidə investisiya fəaliyyətinin idarə edilməsinin formalaşması üzrə ümumi və ixtisaslaşdırılmış ədəbiyyat öyrənilibdir.

Aşkar edilən problemlərin və metodoloji planda onların elmi baxılması tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin nəzərdə tutulan tədqiqatına, kompleks yanaşmaların prinsiplərinə uyğun həyata keçirilibdir.

İşin yazılmasında qanunverici və normativ-hüquqi sənədlər, müasir iqtisadiyyatda iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin problemləri üzrə illik hesabatlar istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Yol və Şəhərsalma Nazirliyinin, iri tikinti şirkətlərinin məlumatları və hesabatları, həmçinin ölkəmizdə və xaricdə nəşr olunan ixtisaslaşdırılmış elmi əsərlər, dövrü mətbuatda dərc edilən elmi məqalələr, elmi-praktiki konfransların materialları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Müəllif tərəfindən aparılan tədqiqatın elmi yeniliyi və əhəmiyyəti aşağıdakı istiqamətlərdə verilmişdir:

- iri tikinti şirkətlərinin investisiya-tikinti fəaliyyəti anlayışının dəqiqləşdirilməsi və onun normativ-hüquqi tənzimlənməsi;
- İran və beynəlxalq normativ bazalara uyğun investisiyaların anlayışının dəqiqləşdirilməsi;
- iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin yeni konsepsiyasının yaradılmasının əsaslandırılması;
- İranın iri tikinti şirkətlərində maliyyə üçotu və hesabatının beynəlxalq standarta keçirilməsinin təklif edilməsi;
- iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin iqtisadi artım göstəricisinin təhlili metodikasının işlənməsi;
- investisiyalaşdırmanın səbəblərinin investisiya mülkiyyətinin formaları ilə sıx əlaqəsinin ümumiləşdirilməsi və investorun gəlirinin formalaşması modelinin işlənməsi;
- iri tikinti şirkətlərində strateji planlaşdırma modellərinin işlənməsi;
- iri tikinti şirkətin investisiya fəaliyyətinin idarə edilməsində yenidən təşkil edilmənin xarici və daxili dəyişikliklərinin reallaşdırılmasının müəyyən edilməsi;
- beynəlxalq praktikaya uyğun iri tikinti şirkətin podrat müqaviləsi üzrə tikinti məhsulunun uçotunun təhlilinin aparılması metodunun əsaslandırılmasının sübut olunması.

**Tədqiqatın praktiki əhəmiyyəti və nəticələrin tətbiqi.** Dissertasiyada verilən nəzəri müddəalar və nəticə müasir İranda iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsində, onun investisiya resurslarının bölüşdürülməsində və səmərəli həyata keçirilməsində istifadə edilə bilər. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi konsepsiyasının qurulması

investisiya fəaliyyətinin idarə edilməsi nəzəriyyəsinin inkişafını zənginləşdirir.

Dissertasiya işinin praktiki dəyəri ondan ibarətdir ki, onun müddəaları və nəticəsi iri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin metodlarının və mexanizmlərinin təkmilləşdirilməsində tətbiq edilə bilər.

İşin nəticəsi və tövsiyyələri İran iqtisadiyyatının tikinti şirkətlərinin investisiya potensialının inkişafının strateji qərarlarının işlənilməsində də istifadə oluna bilər.

Konsepsiya çərçivəsində işlənilən və göstərilən məsələlər iri tikinti şirkətlərinin idarə edilməsinin müxtəlif səviyyələrində investisiya fəaliyyətinin operativliyi və səmərəliliyinin yüksəldilməsinə imkan yaradar, opreativ və strateji qərarları optimallaşdırar, təhlilin kompleksliliini, əyaniliyini, tezliyini, müxtəlif tendensiyaların və amillərin qarşılıqlı əlaqəli uçotunu təmin edər.

Tədqiqatın əsas nəticəsi iri tikinti şirkətlərinin investisiya fəaliyyəti sahəsində gələcək tədqiqatlar üçün nəzəri, metodoloji və metodiki baza ola bilər, həmçinin tədris prosesində uyğun fənnlərin öyrənilməsində istifadə edilə bilər.

Tədqiqatın nəticəsini və tövsiyyələrini İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi, holdinqləri, maliyyə-sənaye qrupları və bütün tikinti şirkətləri (firmaları) istifadə edə bilərlər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi üzrə aparılmış tədqiqatın nəticələri və tövsiyyələri Azərbaycanda,habelə bir neçə xarici ölkədə nəşr edilən elmi jurnallarda məqalə və ayrıca monoqrafiya kimi dərc edilmişdir. Dərc olunmuş işlərin həcmi 17,0 çap vərəqidir. Dissertasiyanın əsas müddəaları və elmi nəticələri Beynəlxalq elmi-praktik konfranslarda məruzə edilmişdir.

Dissertasiya işində verilən yanaşmalar,metodlar,modellər və tövsiyyələr İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyinə təqdim edimiş və təsdiq üçün müvafiq arayış alınmışdır (arayış verilibdir: №01.400,26.02.2018-ci il).

**İşin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 158 səhifədən ibarət olub və işdə 24 cədvəl və 20 şəkil verilmişdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**Giriş**
**Fəsil I. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin nəzəri əsasları**
1.1. Tikintidə investisiya fəaliyyətinin növləri, funksiyaları və subyektləri
1.2. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi
1.3. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin qurulması konsepsiyası
**Fəsil II. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin təhlili metodikası və qiymətləndirilməsi**
2.1. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin iqtisadi artım göstəricisinin təhlili metodikası
2.2. İri tikinti şirkətlərinin rəqabət qabiliyyətinin və investisiya cəlb edilməsi üçün investisiya fəaliyyətinin idarə edilməsinin təhlili və qiymətləndirilməsi.
2.3. İri tikinti şirkətlərinin reallaşdırdığı investisiya layihəsinin müddətinin aşağı salınmasının idarə edilməsinə yeni yanaşmaların təhlili
**Fəsil III. İri tikinti şirkətlərinin investisiayya fəaliyyətinin idarə edilməsinin əsas istiqamətləri**
3.1. İri tikinti şirkətinin investisiya fəaliyyətinin strategiyasının işlənilməsi
3.2. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsində yenidən təşkil olunmaya dəyər yanaşması
3.3. Beynəlxalq praktikaya uyğun iri tikinti şirkətinin podrat müqaviləsi üzrə tikinti məhsulunun uçotunun təkmilləşdirilməsi
Nəticə
İstifadə edilmiş ədəbiyyat siyahısı

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. İri tikinti şirkətlərinin investisiya-tikinti fəaliyyəti anlayışının dəqiqləşdirilməsi və onun normativ-hüquqi tənzimlənməsi.**

Ölkənin bütün istehsal və qeyri-istehsal potensialının maddi bazasının inkişafına təsir edən, əsas sahələrdən biri tikinti hesab edilir. Tikintidə investisiyaların payının kifayət qədər olması ilə əlaqədar, tikinti sahəsi artır və ölkənin digər sahələrinin göstəricilərinin artmasını qabaqlayır və investisiya iqliminin yaxşılaşdırılmasına səbəb olur.

Hal-hazırda iki əsas anlayışı ayırırlar «investisiya kompleksi» və «tikinti kompleksi». İnvestisiya kompleksi resurs nöqteyi-nəzərdən müəyyən edilən, tərkibə uyğundur. Çünki əsas fondların bir hissəsinin yaradılması tikinti istehsalının vasitəsi olmadan baş verir, ona görə də tikinti kompleksi investisiyanın tərkibinə daxil olur.

İnvestisiya fəaliyyəti proses kimi ziddiyətli xarakter daşıyan, öz iqtisadi maraqlarına məxsus təsərrüfat subyektlərinin çoxlu miqdarda cəlb edilməsidir.

Normativ-hüquqi sənədlərin «potensial sifarişçilərin axtarışı – investisiyalaşdırma – layihələndirmə – tikinti – obyektlərin istifadəyə verilməsi – qoyulan vəsaitlərin reallaşdırılması» sxemi üzrə investisiya fəaliyyəti iştirakçılarının funksiyalarının sistemləşdirilməsini işdə təqdim edirik.

İnvestisiya fəaliyyətinin əsas aspektlərinin qarşılıqlı əlaqəli sxemi şəkil 1-də verilir.

**2. İran və beynəlxalq normativ bazalara uyğun investisiyaların anlayışının dəqiqləşdirilməsi.**

Bazar iqtisadiyyatı şəraitində investisiyanın mahiyyəti investisiya fəaliyyətinin iki tərəfinin uyğunluğunu özündə saxlayır: resurs xərclərini və nəticəsinin alınmasını, yəni investisiya fəaliyyətinin motivi kimi gəlir almaq məqsədi ilə investisiyanın həyata keçirilməsi.

Bütünlüklə investisiya proses kimi müəyyən edilir, gedişdə investisiyalaşdırma məqsədi nəzərə alınaraq resurslar xərclərə çevrilir – gəlir almağa imkan yaranır.

Maliyyə hesabının beynəlxalq standartlarına (MHBS) uyğun investisiyalar – faiz, dividend və icarə haqqı, həmçinin kapitalın dəyərinin yüksəldilməsi formasında iqtisali fayda gətirən, aktivlərdir.

Qeyd etmək lazımdır ki, investisiyaya əsas vəsaitlər aid deyil,

investisiya mülkiyyəti istisna olmaqla, uçotun xüsusiyyətləri maliyyə hesabatının beynəlxalq standartına (MHBS) əsasən müəyyən edilir.

**Şəkil 1. İnvestisia fəaliyyətinin əsas aspektləri**




İnvestisiya mülkiyyəti – material aktivlərinə qoyulan investisiyalardır və şirkətin təsərrüfat fəaliyyətində və ya adi fəaliyyətin gedişində satış üçün istifadə edilməsi nəzərdə tutulmur. Digər sözlərlə, bu mülkiyyət torpağa və binalara qoyulan vəsaitlər kimi təsəvvür edilir və şirkətin əsas fəaliyyətinə tətbiq edilməsi nəzərdə tutulmur, ancaq kapitalın dəyərini yüksəltmək məqsədlə istifadə edilə bilər.

İnvestisiya mülkiyyəti və ona aid olmayan obyektlərin qruplaşdırılması cədvəl 1-də təqdim edilir.

İnvestisiya mülkiyyətinin əsas vəsaitlərə, ehtiyatlara və ya digər kateqoriyaya «sahibkarın tutduğu, mülkiyyətə» köçürülməsi dürüst dəyərə görə aparılır və həmin şirkətdə onların dəyişilməsi obyektlərin balans dəyərinin keyfiyyətində qəbul edilir.

**Cədvəl 1.**

**İnvestisia mülkiyyəti və ona aid olmayan obyektlərin təsnifatı**

| **İnvestisiya mülkiyyəti obyektləri** | **İnvestisiya mülkiyyətinə aid olmayan obyektlər** |
|---|---|
| Kapitalın dəyərinin yüksəldilməsindən gəlirin alınması üçün nəzərdə tutulan torpaq | Təbii resursların və s. bərpa edilməsi |
| Əməliyyat icarəsində təqdim edilən binalar və qurğular (xüsusi və ya maliyyə icarəsinə alınanlar) | Satış üçün nəzərdə tutulan binalar və qurğular və ya həmin əhəmiyyətli tamamlanmamış tikinti obyektləri |
| Əməliyyat icarəsi və ya kapitalın dəyərinin yüksəldilmsindən gəlirin alınması üçün nəzərdə tutulan boş binalar və qurğular | Üçüncü şəxsin tapşırığına görə binaların və qurğuların tamamlanmamış tikintisi və ya onların yenidən qurulması və ya investisiya dəyəri kimi gələcəkdə istifadə üçün nəzərdə tutulması |
| Yenidən qurulmada olan, investisiya mülkiyyəti kimi istifadə ediləcək binalar və qurğular | Kommersiya və ya idarəçilik fəaliyyəti kimi istehsalda istifadə edilən, binalar (qurğular); icarə haqqının həcmindən asılı olmayaraq, şirkətin əməkdaşları üçün istifadə edilən yenidən qurulan binalar |

## 3. İranın iri tikinti şirkətlərində maliyyə uçotu və hesabatının beynəlxalq standarta keçirilməsinin təklif edilməsi

Müasir şəraitdə ölkəmizdə pul vəsaitlərinin hərəkəti haqqında hesabatın daxil edilməsi ən mühüm məsələdir. Bizim şəraitimizdə səhmlərin qiymətləndirilməsinin mümkün üsulu emitetin pul axını haqqında hesabatın məlumatlarına əsaslanan metoddur. Müasir İranda pul vəsaitləri axını haqqında hesabat lazımdır, çünki əsas və maliyyə fəaliyyətində gəlirliyin böyük fərqi ilə əlaqədar ümumi hesabat iqtisadiyyatın real sektorunda aşağı düşmənin real səviyyəsini gizlədir.

Ölkələrin çoxuna, o cümlədən İrana da, şans verilibdir ki, mərhələrlə beynəlxalq standarta keçsinlər.

İri tikinti şirkətlərinin balansının aktivləri üç hissədən ibarətdir: cari aktivlər; uzunmüddətli investisiyalar; dövriyyədənkənar aktivlər.

Qərb ölkələrində aktiv hesabı almaq üçün və passiv isə ödəmək üçün istifadə olunur. Pul vəsaitləri və onların ekvivalentləri ehtiyatlar və xərclər kimi izah olunur. Gələcək dövrün xərcləri investisiyalar bölməsinə aid

edilirlər. Dövriyyədənkənar aktivlər bölməsində ardıcıl izah olunur – torpaq, bina, avadanlıqlar və s., qalıq dəyərinə görə göstərilirlər. Aktivlərin üç hissəyə bölünməsi qərbin balansını bizimkinə nisbətən təhlil edilməsini yüksəldir.

Passiv iki bölmədə verilir: öhdəliklər və xüsusi kapital.

Fondların bütün ehtiyyat növləri və kapital qərb balansında xüsusi kapital bölməsində cəmləşdirilir. Balansın beynəlxalq standartı «K» şirkətinin timsalında aktivlər üçün tədqiqat işində göstərilir (cədvəl 2).

**Cədvəl 2**

**Balans cədvəli (balanse sheet assets), min dollar**

| Aktivlər | 1.01.2009 | 12.31.2009 | 2014 | 2016 |
|---|---|---|---|---|
| **Cari aktivlər (current assets)** | | | | |
| Pullar və ekvivalentlər (cash fund equivalent) | | | | |
| Nağd pullar (cash in hand) | | | | |
| Bankda pullar (cash in bank) | 1391 | 2484 | 3147 | 3756 |
| Depozitlərdə pullar (money on depozit) | -<br>4092 | -<br>14109 | -<br>19206 | -<br>17807 |
| Cari hesab (curency account) | 16264,9 | 37994 | 42709 | 44319 |
| Digər pul vəsaitləri (other cash) | 43464 | 38197 | 44895 | 42755 |
| Qısamüddətli kağızlara qoyuluşlar (market able securites) | 1655 | 75165 | 86230 | 79890 |
| **Almağa hesab və hesablamalar (account receivables)** | | | | |
| Mallara və xidmətlərə debitor borcu (debitors for services and goods) | 53590 | 98354 | 10336 | 12157 |
| Veksel üzrə alınmış (notes receivables) | | | | |
| Filiallara avanslar, ssudalar (advances to subsidiaries) | - | - | - | - |
| Büdcə ilə hesablamalar (tax receivables) | - | - | - | - |
| Heyətlə hesablamalar (salaries receivables) | 51755 | 92936 | 11256 | 9570 |
| Tədarükçülərə avanslar (advances to suppliers) | 191 | 982 | 10905 | 9767 |
| Göndərilmiş mallar (shipped goods) | 6121 | 26855,9 | 22450 | 23375 |
| Digər daxilolmalar (other receivables) | 19917 | 39142 | 48830 | 42116 |

| | 101971 | 52108 | 62115 | 59568 |
|---|---|---|---|---|
| **Malların ehtiyatları (inventarı)** | | | | |
| Materialların ehtiyatları (materials inventarı) | 12884,1 | 165227 | 187306 | 143410 |
| Bitməmiş istehsal (work in process) | 17607,8 | 53282,0 | 44350 | 32340 |
| Hazır məhsul (finished goods) | 7881 | 2925 | 3490 | 3760 |
| Mallar (merchandise) | 20244,6 | 43480,5 | 52670 | 54756 |
| Sair mal ehtiyatları (other investoru) | 38 | - | - | - |
| Digər dövriyyə aktivləri (other current assets) | 4 | 25229,5 | 12192 | 11216 |
| **İnvestisiyalar (investments)** | | | | |
| Uzunmüddətli maliyyə qoyuluşları (long-term investments) | 3053 | 119986 | 185756 | 214765 |
| Kapital qoyuluşu (capital investments) | 509306 | 760279 | 980365 | 996541 |
| Gələcək dövrün xərcləri (preraid expenses) | 689 | 5193 | 7766 | 7859 |
| **Dövriyyədənkənar aktivlər (noncurrent assets)** | | | | |
| Əsas fondlar (fixed assets) | - | | - | - |
| Qalıq dəyəri (net book value) | 117168,7 | 132800,1 | 141375 | 148977 |
| Qeyri-metarial aktivləri (intangible assets) | - | | - | - |
| Qalıq dəyəri (net book value) | 1115 | 2871 | 5306 | 6875 |
| Sair dövriyyədənkənar aktivlər (other noncurrent assets) | - | - | - | - |
| **Total** | 261499,6 | 422308,6 | 498776 | 517542 |

**Mənbə:** Cədvəl «K» tikinti şirkətinin materiallarına əsasən müəllif tərəfindən tərtib edilib

**4. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin yeni konsepsiyasının yaradılmasının əsaslandırılması.**

İri tikinti şirkəti həmişə öz məqsədini müəyyən etməlidir. Buna nail olmaq üçün marketinqdən istifadə etməlidir. Bizim təklif etdiyimiz iri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin konsepsiyası 2-ci şəkildə göstərilir.

**Şəkil 2. İri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin konsepsiyası**




İri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin qurulması konsepsiyasını tikintidə üç səviyyədə istifadə etmək olar:

- şirkətlərin, müəssisələrin, təşkilatların, assosiyasiyaların, səhmdar cəmiyyətlərin fəaliyyətini bütünlüklə bu konsepsiyaya yönəltməkdə;
- şirkətlərdə, müəssisələrdə, təşkilatlarda, assosiyasiyalarda, səhmdar cəmiyyətlərində bu konsepsiyanın ayrı-ayrı prinsiplərini istifadə etməkdə (müəyyən məhsulla daxili və xarici bazara çıxmaq, satışdan sonrakı xidməti təşkil etmək və s.);
- şirkətlərdə, müəssisələrdə, təşkilatlarda, assosiyasiyalarda, səhmdar cəmiyyətlərində bu konsepsiyanın ayrı-ayrı prinsiplərini reallaşdırmaqda (ehtiyac və tələbi, reklamı, satışın stimullaşdırılmasını, tələb nəzərə alınmaqla qiymətin əmələ gəlməsini və s.).

Bütünlüklə demək olar ki, bizim ölkəmizdə və Azərbaycanda şirkətlərdə, müəssisələrdə və sairədə marketinq fəaliyyətinin yönəldilməsi kifayət qədər deyil. Hətta xarici partnyorlarla birlikdə şirkətlərin (müəssisələrin) yaradılmasında iştirak edən təşkilatlar marketinq fəaliyyətinə özünün elmi-texniki və istehsal potensialının bir hissəsini

yönəldir.

Hazırda ölkəmizdə işlədiyimiz konsepsiyanın ayrı-ayrı prinsiplərini və elementlərini istifadə etmək üçün şərait yaranıb və tətbiqi məqsədəuyğundur.

İşdə iri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin qurulması konsepsiyasının ən mühüm istiqamətləri verilir.

## 5. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin iqtisadi artım göstəricisinin təhlili metodikasının işlənməsi.

«K» iri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsinin bazar dəyərinin hesablaması cədvəl 3-də verilir.

İri tikinti şirkətinə təsir edən proqnozlaşdırma göstəriciləri aşağıdakı səbəblərdən bir az dəyişildi: işlərin proqramının dəqiqləşdirilməsi; podrat işləri bazarında rəqabətin xarakteri və səviyyəsinin tam uyğun qiymətləndirilməsi; istehsal amilləri bazarının təhlil edilməsi; kreditlərin cəlb edilməsi tələbatının və onun iqtisadi nəticəsinin təyin edilməsi.

**Cədvəl 3**

**İri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsinin bazar dəyərinin müəyyən edilməsi, min dollar**

| Göstərisilər | | | Proqnoz | |
|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 |
| 1. Proqnoz dövründə pul axını | 301670 | 312500 | 376650 | 401575 |
| 2. Pul vəsaitlərinin çıxışı | 275440 | 286330 | 299240 | 285150 |
| 3. Pul axını (1 sətir – 2 sətir) | 26230 | 26170 | 87510 | 26420 |
| 4. Diskont dərəcəsi, % | 19 | 19 | 19 | 11 |
| 5. Diskontlaşdırma əmsalı | 0,840 | 0,706 | 0,593 | 0,658 |
| 6. İllər üzrə pul axınının cari dəyəri (3 sətir × 5 sətirə) | 22033,2 | 18476 | 51893,4 | 17384,3 |
| 7. Pul axınının cari dəyərinin cəmi | - | - | 74572 | - |

**Mənbə:** Cədvəl «K» tikinti şirkətinin materiallarına əsasən müəllif tərəfindən tərtib edilib.

İnvestisiya fəaliyyətinin idarə edilməsinin dəyər göstəricilərinin hesablanması nəticəsi ümumiləşdirilib və cədvəl 4-də göstərilir.

Gördüyümüz kimi «K» iri tikinti şirəktinin investisiya fəaliyyətinin idarə edilməsinin iqtisadi göstəricilərinin müsbət dinamikasına baxmayaraq, iqtisadi artım müşahidə olunmur, buda perspektivdə onun investisiya fəaliyyətinə (maliyyə vəziyyətinə) mənfi təsir göstərə bilər.

**Cədvəl 4**

**İri tikinti şirkətinin investisiya fəaliyyətinin idarə edilməsinin iqtisadi artımının müəyyən edilməsi üçün yekun cədvəli, min dollar**

| Göstəricilər | İllər | | | İqtisadi artım (yenmə) |
|---|---|---|---|---|
| | 2013 | 2014 | 2016 | |
| Gəlirli yanaşmaya əsasən şirkətin dəyəri | 278668 | 219208 | 213760 | -64908 |
| Müqayisəli yanaşmaya əsasən şirpkəin dəyəri | 248756 | 224642 | 211243 | -37513 |

**Mənbə:** Cədvəl «K» tikinti şirkətinin materiallarına əsasən müəllif tərəfindən tərtib edilib.

**6. İnvestisiyalaşdırmanın səbəblərinin investisiya mülkiyyətinin formaları ilə sıx əlaqəsinin ümumiləşdirilməsi və investorun gəlirinin formalaşması modelinin işlənməsi.**

İnvestisiyalaşdırmanın səbəbləri investisiya mülkiyyətinin formaları ilə sıx əlaqədardır. Dövlətin daxili və xarici təhlükəsizliyinin təmin edilməsinə yönəldilən, investisiya layihələrinin reallaşdırılması üzrə investisiya yükü bütünlüklə büdcə investisiyalarına aiddir (hazırda və uzun perspektivdə); səhərdə, regionda daxili təhlükəsizliyin qorunmasına səbəb olan, investisiya layihələrinin həyata keçirilməsi üçün müəyyən şəraitdə bələdiyyə investisiyaları cəlb edilə bilər.

Sosial sferada investisiya layihəsinin reallaşdırılmasında ayrıca hallarda yuxarıda göstərdiklərimizlə yanaşı, şəxsi, habelə qarışıq İran investisiyaları da istifadə oluna bilər.

Qoyulan kapitala mənfəət almaq üçün mülkiyyət formalarından asılı olmayaraq bütün investorlar cəhd göstərirlər. Bu səbəb bazar şəraitində ən qüvvətli hesab edilir.

Qoyulan kapiatala mənfəət almağa yönəldilən, istehsal əhəmiyyətli investisiya layihəsinin reallaşdırılmasına sərf edilən, investisiyaların dövretmə prosesinə baxaq.

Bu prosesi ümumi növdə aşağıdakı kimi təsəvvür etmək olar:



burada İ – əsas kapitala investisiyalar (pul formasında);

V – investisiya vəsaitləri qoyulan resurslar (tikinti materialları, texnoloji avadanlıqlar, innovasiyalar, əmək, torpaq və s.);

M – əsas kapitala investisiyaların dövriyyəsinin məhsuldar mərhələsi (layihə-axtarış, tikinti, quraşdırma-texnoloji işlər, əsas fondların istismarı);

Ə – əsas kapitala investisiyaların dövr etməsinin əmtəə mərhələsi;

$Ə_{lat}$ – layihə-axtarış təşkilatının əmtəə məhsulu (layihə-smeta sənədləri);

$Ə_{tqt}$ – tikinti-quraşdırma şirkətin əmtəə məhsulu (tam qurtarmış və istifadəyə verilmiş istehsal gücləri);

$Ə_{inv}$ – investor üçün əmtəə məhsulu (reallaşdırılmış investisiya layihəsinin əsas fondlarının istismarından alınan);

$P_{lat}$ – investordan alınan, layihə-axtarış təşkilatının pul vəsaitləri;

$P_{tqt}$ – investordan alınan, tikinti-quraşdırma şirkətin pul vəsaitləri;

$P_{inv}$ – layihənin əsas fondlarının istismarından alınan investorun pul vəsaitləri (mənfəət).

**7. İri tikinti şirkətin investisiya fəaliyyətinin idarə edilməsində yenidən təşkil edilmənin xarici və daxili dəyişikliklərinin reallaşdırılmasının müəyyən edilməsi.**

Şirkətin investisiya fəaliyyətinin idarə edilməsində yenidən təşkil edilmənin xarici dəyişikliklərinin həyata keçirilməsində ən mühümləri aşağıdakılardır:

- xarici dəyişikliklərin zəruriliyi şirkətlərin dəyərinin artması strategiyası kimi, ayrıca daxili dəyişikliklərə nisbətən böyük verimi təmin edilir;
- xarici dəyişikliklərə qədər formalaşmış yenidən təşkil edilən şirkətlərin biznes-xərclərinin sabit mövcudluğu;
- yeni yaradılan şirkətlərdə daxili dəyişikliklərin aydın strategiyasının və taktikasının mövcudluğu.

Daxili dəyişikliklərin rellaşdırılmasının mühüm şərti planlaşdırılan yenidən təşkil edilmənin təşkilati əsasının təmin edilməsi, onun uyğun qiymətləndirilməsi üçün bazisin yaradılmasıdır. Dəyər yanaşmasına əsasən yenidən təşkil edilməni həyata keçirən, bəzi şirkətlərlə müəllifin məsləhətləşməsi təcrübəsi göstərdi ki, şirkətin dəyərinin monitorinqi və idarəetmə sistemi (DMİS) adının alınması, idarəetmənin ayrıca yarımsistemi üçün lazımdır. DMİS-nin işləməsi planlaşdırılan dəyişikliklərin və onların həyata keçirilməsi üzrə tarazlaşdırılmış qərarların

inteqrasiyasına əsasən şirkətin dəyərinin artması göstəricilərinin təmin edilməsi üçün istiqamətlənibdir. Beləliklə, dəyərin idarə edilməsi mütəxəssislərin məhdud qrupunun ayrıca fəaliyyət sferası deyil və şirkətin bütün menecmentinin qüvvəsi ilə təmin edilir. DMİS bir neçə mərhələdə reallaşdırılır (şəkil 3).

1. DMİS idarəetmə obyektlərinin seçilməsi və təsvirinin formalaşması
↓
2. İdarəetmə səviyyəsi üzrə idarəetmənin məqsədlərinin formalaşması
↓
3. DMİS smərəliliyi və fəaliyyətinin çoxlu göstəricilərinin formalaşması
↓
4. İdarəetmə üsullarının işlənib hazırlanması
↓
5. Qəbul edilən qərarların informasiya bazasının yaradılması
↓
6. Sənədləri qaydaya salan sistemin işlənib hazırlanması

Şəkil 3. İnvestisiya fəaliyyətində dəyərin idarə edilməsinin monitorinq sisteminin yaradılması mərhələləri (DMİS)

Beləliklə, müasir şəraitdə tikinti şirkətlərinin yenidən təşkil edilməsi mürəkkəb dəyişikliklər kompleksidir, əldə edilən müvəffəqiyyətlər onların aparılmasına əsaslı seçilmə yanaşmasının, nəticələrin dəyər qiymətləndirilməsinin, habelə şirkətin biznesinin dəyərinin artmasının təmin edilməsinə yönəldilən, idarəetmənin ayrıca yarımsisteminin təşkili ilə müəyyən edilir.

**8. Beynəlxalq təcrübəyə uyğun iri tikinti şirkətin podrat müqaviləsi üzrə tikinti məhsulunun uçotunun təhlilinin aparılması metodunun əsaslandırılması.**

Beynəlxalq təcrübəyə uyğun podrat müqaviləsi üzrə tikinti məhsulunun uçotunun təhlili xüsusi maraq oyadır. Maliyyə uçotunun beynəlxalq standartlarının (əsaslı tikinti) 11 №-li standartında göstərilir ki, tikinti-quraşdırma işlərinin maya dəyərinin hesablanması üçün iki metod vardır – tikinti işlərinin qurtarması üzrə və tikinti işlərinin yerinə

yetirilməsi üzrə. Həmin metodlar amerikanın GAAR sdandartına (MHBS) uyğun gəlir.

Hollandiyanın GAR 2.11.4. standart uçotunda və Amerikanın ARB-45 standartında şərtlərin siyahısı verilir və onlara əsasən investisiya layihəsinin həyata keçirilməsi üzrə maya dəyərinin uçot metodu (faiz metodu) tətbiq edilə bilər.

İranın və beynəlxalq sistemlərin uçotunda maya dəyərinin nəzərə alınması metodları çox halda oxşardır, ancaq fərqi vardır. Belə, beynəlxalq standarta uyğun maya dəyərinin hesablanmasının faiz metodunun tətbiqi tikintinin xərclərinin hesablanmasının qiymətləndirilmə məlumatlarına əsaslanır.

İran sisteminin uçotunda tikinti işlərinin maya dəyərinin hesablanması metodu işlər hazır olduqda tətbiq edilir, adətən, az müddətli eyni tipli xüsusi işlərə görə, beynəlxalq standartlarda həmin metod uzunmüddətli tikinti sazişlərinə aid olur. Beləliklə, İranın standartı tikinti işlərinin maya dəyərinin uçotu metodunun seçilməsinin beynəlxalq meyarından fərqlənir.

MHBS 11-ci standartına aşağıdakı məzmunda paraqraf daxil edilibdir:

«Şirkət nəzərə almalıdır»: aktiv kimi – podrat müqaviləsinə görə işə sifarişçidən çatan, ümumi məbləğ; öhdəlik kimi – podrat müqaviləsi üzrə işə sifarişçinin ödədiyi, ümumi məbləğ.

Həmin məbləğlər mümkün variantlar üzrə tamamlanmamış podrat müqaviləsinə əsasən hesablanmalıdırlar (cədvəl 5).

**Cədvəl 5**

**Tamamlanmamış podrat müqaviləsi üzrə məbləğin hesablama variantları, ABŞ doll.**

| Məbləğ | 1 variant | 2 variant |
|---|---|---|
| Hesabatda əks edilən, mənfəət nəzərə alınmaqla, müqavilə üzrə xərclərin məbləği | 20000 | 20000 |
| Hesabatda əks edilən, itgilər nəzərə alınmaqla, uzunmüddətli podrat müqaviləsi üzrə çıxarılan, aralıq hesabatların məbləği | 17600 | 21600 |
| Yekun:<br>- podrat müqaviləsinə görə işə sifarişçidən çatan məbləğ<br>- podrat müqaviləsinə görə işə sifarişçinin lazım olan ödəməsinin, məbləği | 2400<br><br>3000<br>- | 1600<br><br><br>1600 |

**Mənbə:**Turher R.H.S. Investments for industrial advance. Mass Productions, London, 2016, 420 p.

Əgər podrat müqaviləsi bir neçə keçmiş hesabat dövrləri ərzində yerinə yetirilbsə, onların gəlirləri və xərclərinin göstəriciləri hesabat dövründə və hesabat tarixinə müqavilənin yerinə yetirilməsindən əvvəl göstərilir.

Ancaq MHBS 11-ci standartında ilk uçotun təşkili üzrə dəqiq göstərişlər yoxdur: tikinti materialları və konstruksiyalarını gəlirə necə yazmaq, onların saxlanılmasını və ona nəzarəti necə təşkil etmək, tikinti maşınları və mexanizmlərinin işini necə nəzərə almaq, istehsal normasına və əmək haqqına nəzarəti və uçotu necə aparmaq, tamamlanmamış istehsalın və yerinə yetirilən işlərin maya dəyərinin kalkulyasiyasını necə tərtib etmək. BHBS 11-ci standartında istehsal uçotu məsələləri baxılmır.

**Tədqiqatın gedişində müəllif tərəfindən elmi əsaslandırılmış və ümumiləşdirilmiş yeni nəticə və tövsiyyələrin bəziləri aşağıda verilir:**

1. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi maliyyə menecmentinin mühüm tərkib hissəsidir, bəzi halda iqtisadi idarəetmənin müstəqil sferası kimi ayrılır – layihənin idarə edilməsi.

2. İri tikinti şirkətinin fəaliyyəti üç növə bölünür: əməliyyata, investisiyaya və maliyyəyə. Üç növə bölünmənin zəruriliyi onunla izah olunur ki, onların hərəsinin ayrılıqda öz rolu olmaqla bərabər, bir-birləri ilə qarşılıqlı əlaqədardır. Əgər əsas fəaliyyət pul vəsaitləri ilə təmin etmək üçündürsə, investisiya və maliyyə fəaliyyəti bir tərəfdən əsas fəaliyyətin inkişafına səbəb olur, digər tərəfdən isə onu əlavə pul vəsaitləri ilə təmin edir. Üç növ fəaliyyət birlikdə isə mənfəətin əsas mənbəyidir.

3. İri tikinti şirkətləri altında belə tikinti şirkəti başa düşülür: tikinti obyektlərinin istehsal fəaliyyətinə daxil edilən tikinti istehsalının resurs – təkrar istehsal tsiklinin hamısı (hazırlıq işləri, layihələndirmə, tikinti, quraşdırma və işə salma işləri, istismara təhvil vermə, istismar, habelə razılaşdırmanın bütün üsulları) müstəqil reallaşdırılır. Onlar kifayət qədər resurslara (istehsal, texniki-texnoloji, maliyyə-investisiya, infrastruktur, informasiya-əqli) və obyektlərin səmərəli idarə edilməsi üçün insan potensialına malikdirlər; özünə müstəqil biznesin cəmini, ümumi koordinasiya mərkəzini və vahid informasiya-analitik platformasını daxil edir; idarəetmənin bəzi innovasiya texnologiyasına və tikinti istehsalının resurs-təkrar istehsal tsiklinin reallaşdırılmasına sahibdir.

4. Bizim təklif etdiyimiz müddəalar ondan ibarətdir ki, biz eyni zamanda investisiya fəaliyyətinə və tikinti şirkətinin özünə sistem kimi baxırıq. Burada resurs axınları «kapilyar» rolunu oynayır və investisiya aktivliyini canlandırır, sistemin blokları isə «orqanın həyat fəaliyyətinin

açarı» növündə çıxış edir və tikinti-quraşdırma işlərinin geniş kompleksinin yerinə yetirilməsi üçün iri tikinti şirkətini məcbur edir ki, resursları cəlb etsin.

5. İri tikinti şirkətin idarə edilməsinin bütün funksiyaları üzrə (marketinq, planlaşdırma, təşkilat, operativ rəhbərlik, nəzarət, motivasiya), elementlərin bütün cəmi üzrə (innovasiya, maddi-texniki təchizat, istehsal, satış, infrastruktur, kadr, keyfiyyət sistemi) investisiyalaşdırma proseslərinin inkişafı mexanizmi tarazlaşdırılmalıdır.

**Dissertasiya işinin əsas məzmunu dərc olunmuş aşağıdakı materiallarda əks etdirilmişdir:**

1. Şeybani Ə.M.A. İri tikinti şirkətlərinin investisiya cəlb edilməsinin yüksəldilməsi üçün investisiya fəaliyyətinin idarə edilməsinin təhlili və qiymətləndirilməsi. Azərbaycan elmi-tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutunun elmi əsəlrləri, № 1, Bakı, 2009, 0,6 ç.v.

2. Şeybani Ə.M.A. İri tikinti şirkətinin investisiya layihəsinin müddətinin azaldılmasının idarə edilməsinə yeni yanaşmaların metodologiyası. AMEA iqtisadiyyat institutunun Modernləşdirmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları (həmmüəlliflə). Bakı, 2009, 0,6 ç.v.

3. Şeybani Ə.M.A. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsi sisteminin qurulması konsepsiyası. AMEA iqtisadiyyat institutunun Modernləşdirmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2009, 0,6 ç.v.

4. Şeybani Ə.M.A. Beynəlxalq praktikaya uyğun iri tikinti şirkətinin podrat müqaviləsi üzrə tikinti məhsulunun uçotu. AMEA iqtisadiyyat institutunun Elmi əsərləri, № 1, Bakı, 2009, 0,6 ç.v.

5. Şeybani Ə.M.A. İri tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsində yenidən təşkil edilməyə dəyər yanaşması. Turan strateji araşdırmalar mərkəzi. № 3, Türkiyə, 2009, 0,5 ç.v.

6. Şeybani Ə.M.A. İri tikinti şirkətlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün investisiya fəaliyyətinin idarə edilməsinin təhlili. AMEA iqtisadiyyat institutunun elmi əsərləri, №2, Bakı, 2009, 0,6 ç.v.

7. Şeybani Ə.M.A. İri tikinti şirkətin investisiya mülkiyyəti. AzMİU, Beynəlxalq elmi-praktik konfrans (15-16 dekabr, 2009), Bakı, 2009, 0,2 ç.v.

8. Шейбани М.А.А. Управление инвестиционной деятельностью крупных строительных компаний. Актуальные проблемы

современной науки. №5, Москва, 2009, 0,5 п.л.

9. Шейбани М.А.А. Новые подходы к управлению сокращения сроков реализации инвестиционных проектов в крупных строительных компаниях. Вопросы экономических наук. №4, Москва, 2010, 0,6 п.л.

10. Şeybani Ə.M.A. Tikinti şirkətlərinin investisiya fəaliyyətinin idarə edilməsinin formalaşması. Monoqrafiya. Bakı, «Təhsil» NPM, 2010, 11,5 ç.v.

11. Шейбани М.А.А. Методы учета договора на строительство согласно международным стандартам. «Глобальный научный потенциал», научно-практический журнал. Санкт-Петербург. №2 (11), 2012, 0,7 п.л.



**Манучер Асл Аббасали оглы Шейбани**

**Формирование управления инвестиционной деятельностью крупных строительных компаний**

## РЕЗЮМЕ


Диссертация состоит из введения, трех глав, выводов и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определены цели, задачи, объект и предмет исследования, научная новизна и практическая значимость диссертации.

В первой главе работы рассмотрены теоретические основы управления инвестиционной деятельностью крупных строительных компаний. Показаны виды, функции и организационные формы субъектов инвестиционно-строительной деятельности и т.д.

Во второй главе диссертации дан анализ методики оценки управления инвестиционной деятельностью крупных строительных компаний.

В третьей главе рассмотрены основные направления управления инвестиционной деятельностью крупных строительных компаний.

Научная новизна и теоретическая значимость исследования состоит в следующем: теоретически обоснованы виды, функции и субъекты инвестиционной деятельности в строительстве; обоснованы концепции построения системы управления инвестиционной деятельностью крупных строительных компаний; разработаны методики анализа показателя экономического роста управления инвестиционной деятельностью крупных строительных компаний; проведен анализ управления инвестиционной деятельностью для привлечения инвестиций и конкурентоспособностью крупной строительной компании; разработаны стратегии инвестиционной деятельности крупных строительных компаний и.т.д.

В заключении обобщены результаты проведенного исследования и сформулированы конкретные выводы.

**Manucher Abbasali Sheybani**

**Formation of management by investment activity of the large building companies**

## SUMMARY

The dissertation consists of the introduction, three chapters, conclusions and the list of the used literature.

In introduction the urgency of a theme is proved, the purposes, tasks, object and subject of research, scientific novelty and the practical importance of the dissertation are determined.

In the first chapter theoretical bases of management are considered by investment activity of the large building companies. Kinds, function and the organized forms of subjects of investment-building activity are shown.

In the second chapter of the dissertation is given the analysis of a technique estimation of management by investment activity of the large building companies.

In the third chapter the basic directions of management are considered by investment activity of the large building companies.

Scientific novelty and the theoretical importance of research consist in the following: kinds, functions and subjects of investment activity in construction are theoretically proved; concepts of construction of a control system are proved by investment activity of the large building companies; techniques of the analysis of parameter economic growth of management are developed by investment activity of the large building companies; the analysis of management by investment activity for attraction of investments and competitiveness of the large building company is carried out; strategy of investment activity of the large building companies are developed.

In the conclusion results of the research are generalized and formulated concrete conclusions.

Avtoreferat   AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115